## Vergi əməkdaşları üçün tədris kursu

Vergilər Nazirliyinin insan resurslarının inkişafı strategiyasında başlıca istiqamətlərdən biri kimi vergi orqanları əməkdaşlarının peşə hazırlığının artırılması, güclü kadr bazasının formalaşdırılması əsas yer tutur. Hazırda vergi sistemində tətbiq olunan vergi tədris modeli layihəsinin əsas komponentləri də məhz əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılmasının gücləndirilməsidir. Bu sahədə həyata keçirilən tədris kursları yeni dövrün tələblərinə uyğun peşəkar kadr hazırlığının təmin olunmasına zəmin yaradır.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi cinayətlərinin ibtidai araşdırılması sahəsində işlərin təşkili» proqramına əsasən, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları üçün tədris kursu təşkil olunub. Departamentin istintaq, təhqiqat və əməliyyat şöbəsinin işçilərinin ixtisaslarının artırılmasının təmin edilməsi məqsədilə 2012-ci ilin sentyabr ayının 24-dən oktyabrın 12-dək təşkil olunan kursda dərslər Tədris Mərkəzinin müəllimləri və müvafiq dövlət qurumlarının ekspertləri tərəfindən keçilib.

Tədris prosesində Milli Aviasiya Akademiyasının dosenti Şair Abdurrahmanov, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının əməkdaşı, h.e.f.d. Şahin Əliyev, Ədliyyə Nazirliyinin Ekspertiza İnstitutunun şöbə müdiri Əli Məlikov, Baş Prokurorluğun şöbə prokuroru, h.e.f.d Malik Səlimov, Bakı Dövlət Universitetinin Cinayət-prosessual kafedrasının müdiri, professor Firuzə Abbasova, həmin universitetin Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov müxtəlif mövzularda mühazirələrlə çıxış ediblər.

Tədris prosesində dinləyicilərə vergi qanunvericiliyi, cinayət hüququ və cinayət-prosessual qanunvericiliyi, mühasibat uçotu, auditin təşkili, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, məhkəmə-mühasibat ekspertizası, əməliyyat-axtarış haqqında qanunvericilik, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul olunmuş normativ hüquqi aktlar barədə müfəssəl məlumatlar verilib. Tədris kursunun sonunda real vaxt rejimində test üsulu ilə imtahanın keçirilməsi nəzərdə tutulur.

Kursa dəvət olunmuş ekspertlər tədris prosesinin yüksək təşkil olunduğunu diqqətə çatdırıblar.

Bakı Dövlət Universitetinin Cinayət-prosessual kafedrasının müdiri, professor Firuzə Abbasova: «Tədris prosesi çox canlı keçdi, dinləyicilər aktiv şəkildə iştirak edərək cinayət-prosessual prosesləri ilə bağlı baş verən yeniliklər barədə məlumatlı olduqlarını göstərdilər. Son illər ölkəmizdə hüquq sahəsində qanunvericilik təkmilləşdirilir, cinayət və mülki prosessual aktlarda bir sıra dəyişikliklər olunur, Cinayət Məcəlləsinin bəzi maddələrinə əlavələr edilir. Hüquq-mühafizə orqanları, vergi orqanı əməkdaşları bu meyarları istintaq və tədqiqat işlərinin aparılmasında tətbiq etməlidirlər. Bu cür tədris kurslarının təşkil olunması vergi orqanı işçilərinin müvafiq sahə üzrə zəruri biliklərinin artmasında, vergi cinayətləri sahəsində tədqiqatların aparılmasında peşəkarlıq səviyyələrinin daha da yüksəlməsində mühüm rol oynayırlar».

Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov: «Ölkəmizdə son illər iqtisadi inkişafın sürətlənməsi, qeyri-neft sektorunda artım meyillərinin güclənməsi, iqtisadi idarəetmənin təkmilləşdirilməsi vergi orqanı-ödəyici münasibətlərinin də yeni mərhələyə qədəm qoymasına səbəb olub. Baş verən bu proseslər hər iki tərəfin yeni qanunlar, qanunvericiliyə edilən dəyişikliklər, tətbiq olunan qaydalarla bağlı lazımi bilikləri mənimsəməsini zəruri edir. Eyni zamanda, bu gün hüquqi sahədə böyük dəyişikliklər baş verir, Azərbaycan beynəlxalq müqavilələrə qoşulur, yeni hüquqi aktlar qəbul edir, bütün bu hallar cinayət-prosessual, mülki sahədə istintaq və tədqiqat işlərinə yeni yanaşma tələb edir. İxtisasartırma kursu işgüzar şəraitdə keçdi və departamentin əməkdaşları tərəfindən yüksək məsuliyyət hissi ilə qarşılandı. Bu cür kurslar vergi orqanı əməkdaşlarının hazırlığının və təcrübəsinin yüksəldilməsinə kömək etməklə yanaşı, vergi cinayətlərinin ibtidai araşdırılması işləri zamanı onların vergi ödəyiciləri ilə münasibətlərinin müasir tələblər səviyyəsində qurulmasına kömək edəcək».

E.CƏFƏRLİ